# Həftəlik

# *Bülleten*

**068**

**8 Noyabr 2024**



Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və layihələr
Dünya tikililəri

**ATMİA**

info@atmia.az www.atmia.az

**MİDA Sumqayıt və Lənkəranda güzəştli mənzilləri satışa çıxarır.**

Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) Sumqayıt şəhəri, Bulvar küçəsi, 197 ünvanında yerləşən Sumqayıt Yaşayış Kompleksi üzrə 392 mənzili və Lənkəran şəhəri, Akademik Zərifə Əliyeva küçəsi, 303 ünvanında yerləşən Lənkəran Yaşayış Kompleksi üzrə 152 mənzili, ümumilikdə 544 mənzili satışa çıxarır. Məlumata görə, satış dekabrın 6-da saat 11:00-da başlayacaq və dekabrın 14-ü saat 11:00-a qədər davam edəcək. "MİDA-nın sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq gözləmə qaydasında mənzillərin seçimi dekabrın 10-da saat 11:00-da başlayacaq və dekabrım 14-ü saat 11:00-a qədər davam edəcək. Ölkə Prezidentinin 16 noyabr 2016-cı il tarixli fərmanına əsasən mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərindən (www.e-gov.az), "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir. Yalnız bu sistemdə elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdir. "Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.



**Ağdam Sənaye Parkında istehsal edilən məhsulların istifadəsinə başlanılıb.**

İqtisadiyyat Nazirliyinin yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkında Ağdam Sənaye Parkında istehsal edilən məhsulların istifadəsinə başlanılıb.

Agentliyə istinadən xəbər verilir ki, Ağdam Sənaye Parkında istehsal edilən dam örtükləri, divar kağızları, məsaməli hörgü blokları, dəmir və metal qapılar, jalüz, məhəccər və arakəsmələr, metal torlar və s məhsullar işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma, bərpa işlərində istifadə olunur. Sənaye Parkının rezidentləri tərəfindən indiyədək 1,8 milyon manat dəyərində məhsul satışı həyata keçirilib. İstehsal olunan məhsullar, əsasən Ağdam, Cəbrayıl, Laçın, Kəlbəcər və s. rayonlarda yeni kəndlərin salınmasında istifadə edilir.

Hazırda Ağdam Sənaye Parkında ümumi investisiyalarının həcmi 260 milyon manat olan 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Parkda 9 müəssisə fəaliyyətə başlayıb, 370-dən artıq daimi iş yeri yaradılıb.



**9 ayda azad edilmiş rayonlarda tikinti işlərinə 3.6 mlrd. manatdan çox vəsait xərclənib.**

2024-cü ilin yanvar-sentyabr ayları ərzində azad edilmiş rayonlarda tikinti-quraşdırma işlərinə 3 milyard 604 milyon 307 min manat vəsait sərf edilib. Dövlət Statistika Komitəsinin hesabatı əsasən, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 6.9% və ya 266.3 milyon manat azdır. Belə ki, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində azad edilmiş rayonlarda tikinti-quraşdırma işlərinə 3 milyard 870 milyon 597 min manat vəsait yönəldilib. Qeyd edək ki, hesabat dövründə ən çox vəsait Kəlbəcər ( 797 mln. 437 min manat), Ağdam (527 mln. 112 min manat) və Laçın ( 567 mln. 497 min manat) rayonlarına ayrılıb. Xatırladaq ki, cari ilin yanvar-sentyabr ayları ərzində Azərbaycanda əsas kapitala 12 milyard 711 milyon manat vəsait yönəldilib ki, bununda 9 milyard 193 milyon manatı tikinti quraşdırma işlərinə sərf edilib. Beləliklə hesabat dövründə işğaldan azad olunmuş ərazilər üzrə tikinti-quraşdırma işlərinə sərf olunan vəsait respublika üzrə yenidənqurma işlərinə sərf olunan vəsaitin 39.2%-ni təşkil edib.



**Bakıda "BAKUARCHIFEST 24: Architecture & Human" memarlıq festivalı keçiriləcək.**

Bakıda ilk dəfə keçiriləcək "Baku Archifest 24: Architecture & Human" tədbiri, 4-6 dekabr tarixlərində "Memarlıq və İnsan" şuarı ilə memarlıq sahəsində yeniliklərə marağı olan hər kəsi bir araya gətirəcək. Üç gün davam edəcək bu unikal tədbir, memarlıq sahəsində peşəkarlar və tələbələr, o cümlədən Azərbaycan tikinti sektorunda aparıcı rol oynayan tərəflər üçün mükəmməl bir platforma olmaqla yanaşı, aktual memarlıq problemlərinə yenilikçi həllərin öyrənilməsi və müzakirəsinə geniş imkan yaradacaq. "Baku Archifest 24: Architecture & Human" tədbirinin təşkilatçıları Azərbaycanın qabaqcıl layihəçi şirkətlərindən olan "Design Bureau" və Türkiyənin məşhur "Aslı Architecture" memarlıq şirkətidir. Festivalın məqsədi, iştirakçıları memarlıq sahəsindəki ən son nailiyyətlərlə tanış etmək, həmçinin tanınmış mütəxəssislərin rəhbərliyi ilə maraqlı müzakirə və ustad dərslərinə qoşulmaq imkanı verməkdir. Burada iştirakçılar üçün yeni əlaqələr qurmaq və gələcəyin memarlıq anlayışlarını formalaşdırmaq istiqamətində əhəmiyyətli bir mühit yaradılacaq. Tədbirin proqramında panel müzakirələr, tələbə və gənc memarların təqdimatları, müxtəlif ustad dərsləri və dizayn studiyalarına, şourumlara ekskursiyalar nəzərdə tutulur. İlk gün rəsmi açılış, sonrakı günlərdə təhsil və inkişaf yönümlü sessiyalar keçiriləcəkdir. Festivalda hər kəs ödənişsiz iştirak edə bilər. https://www.bakuarchifest.com

bakuarchifest24
architecture&human

**Bakının bəzi ərazilərində fərdi evlər söküləcək.**

Bakının bir sıra rayonlarında yerləşən fərdi evlərdə söküntü işləri aparılacaq.

Bildirilib ki, söküntü aparılacaq həmin evlərin yerində hündürmərtəbəli binalar və parklar salınacaq.

Bu da öz növbəsində, sakinlərin narazılığına səbəb olub.

Məsələ ilə bağlı Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov bildirib ki, Süleyman Vəzirov, Yusif Səfərov və digər küçələrin bir hissəsində söküntü işləri aparılacaq.

“Bu istiqamətdə vətəndaşlara kompensasiya ödəniləcək, narazı olan şəxslərin problemləri komissiya tərəfindən həll ediləcək”.



**Azərbaycanda daha bir faydalı qazıntı yatağı hərraca çıxarılacaq.**

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) Xocalı rayonundakı "Ağçay" üzlük daşı yatağını açıq hərraca çıxarır.

hərrac dekabrın 19-da, saat 11:00-da Əmlak Xidmətləri Məkanında (Bakı şəhəri, Nizami rayonu, Xəlil Rza Ulutürk küçəsi, 20 ünvanında) keçiriləcək.

Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər lazımi məlumat almaq, iştirak haqqı və 10 %-lik behi ödəmək üçün Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinə (Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi, 31 A) müraciət edə bilərlər.

| N | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın koordinatı | Başlanğıc qiyməti (manatla) | Beh məbləği (10%) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Ağçay | LOT-1 | 6000 $m^3$ | 2.4 ha | Üzlük daşı | Altı ay | 657132,05<br>4412047,68 | **600** | **60** | **540** |



**ATMİA üzvləri EXPO HOME yeni premium inşaat materiallarının Satış Mərkəzinin açılışında iştirak etdilər.**

7 noyabr tarixində KOBİA rəhbəri cənab Orxan Məmmədov, ASK, ATMİA, KOBSKA və s. qurumların iştirakı ilə assosiasiyamızın üzvü tərəfindən təsis olunmuş, EXPO HOME adlı yeni premium inşaat materiallarının Satış Mərkəzinin açılışı oldu.
Açılışda iştirak edən üzvlərimizə və EXPO HOME rəhbərliyinə uğurlar arzulayırıq.
Planlarınızı bizimlə paylaşın, hədəflərinizə daha sürətli çatmadığınıza məmnuniyyətlə dəstək olmağa hazırıq.






**Hörmətli sahibkarlar!**

15 noyabr tarixində COP 29 çərçivəsində “Dayanıqlı ticarət Afrika” mövzusunda tədbir təşkil olunacaq. Tədbirdə iştirak üçün Bakı Olimpiya stadionu, Blue Zone-da qeydiyyat zəruridir.
Qeydiyyat linki: https://www.sustainabletradeafrica.com/cop29-side-event-visitors-registration
Tel.: 0124040401 (dax.201)

anons

**Hörmətli sahibkarlar!**

28-29 noyabr tarixlərində Rusiyada “Vladimir vilayətinin Türkiyə və Azərbaycanla əməkdaşlığı” mövzusunda forum keçiriləcək. Rusiyanın Suzdal şəhərində baş tutacaq bu forumda qarşılıqlı idxal, ixrac və investisiya imkanları ətrafında müzakirələr aparılacaq. Tədbirin təşkilatçıları Suzdal şəhərində oteldə yerləşmə və Moskva-Vladimir istiqamətində qatar biletlərini təmin edir.
Gediş gəliş aviabilet: 650-700 AZN təşkil edir.
Əlaqə nömrəsi: 010 250 03 24.
Qeydiyyat üçün son tarix: 15 noyabr 2024.



**Hörmətli sahibkarlar!**

COP 29 çərçivəsində təşkil etdiyimiz və tərəfdaşlıq etdiyimiz silsilə layihələr davam edir. 18 noyabr 09:30-da Polşa Respublikasının İqlim və ətraf mühit naziri, Zati-aliləri Paulina Hennig-Kloaka, Polşa İnkişaf bankının direktoru xanım Joanna Wegrzyn, Polşa Banklar Assosiasiyasının Vitse-Prezidenti xanım Agnieszka Wachnicka və digər mötəbər şəxslərin iştirakı ilə "Yaşılın yayılması: Polşa-Azərbaycan Biznes Forumu" keçiriləcək.
Öncədən qeydiyyat önəmlidir.
Tel.: 0102500324

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: CEMENT EXPO VIETNAM 2024**

**Tarixlər: 13-14 noyabr 2024-cü il,**

**Məkan: NECC - Milli Sərgi Tikinti Mərkəzi, Hanoi (Vyetnam)**

Vyetnamda həm yuxarı, həm də aşağı axın Sement və Beton şirkətlərinin və həmçinin onu dəstəkləyən sənayelərin beynəlxalq yığıncağını bir araya gətirən yeganə ixtisaslaşmış Beton tədbiri

**Sərginin adı: ARCHITECTURE & BUILDING SERVICES 2024**

**Tarixlər: 13-15 noyabr 2024-cü il,**

**Məkan: Marina Bay Sands, Sinqapur (Sinqapur)**

Məhsulların, Texnologiyaların və Xidmətlərin Geniş çeşidini əks etdirən ticarət şousu. Memarlıq və İnteryer Dizaynı, Təhlükənin qarşısının alınması, Obyektlərin İdarə Edilməsi, Tikinti Materialları, Təhlükəsizlik, Əməyin Təhlükəsizliyi

**Sərginin adı: BURSA INTERNATIONAL MARBLE BLOCK FAIR 2024**

**Tarixlər: 13 - 16 noyabr 2024-cü il,**

**Məkan: Tüyap Bursa Beynəlxalq Sərgi və Konqres Mərkəzi, Bursa (Türkiyə)**

Bursa Beynəlxalq Mərmər Blok Sərgisi. Qapalı yerlərdə mərmər blokları və ağır texnika sərgilənir

**Sərginin adı: ARCHITECT @ WORK - ITALY - MILAN 2024**

**Tarixlər: 13-14 noyabr 2024-cü il,**

**Məkan: MiCo - Milano Konqresi, Milan (İtaliya)**

Memarlıq və İnteryer Dizayn Sərgisi. ARCHITECT@WORK sizə aşağıdakılarla əlaqə saxlamaq imkanı verir: memarlar, daxili memarlar, dizaynerlər, mühəndislik büroları, layihə tərtibatçıları, texniki xidmətlər, şəhər və rayon şuraları

**Məktəblərin təmiri və abadlaşdırılması üçün 2 milyon manatlıq - TENDER KEÇİRİLİR**

Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi açıq tender elan edir.
Elanda Respublikanın bir sıra təhsil müəssisələrində abadlıq və təmir işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Salahova Nuranə-Gülgün, baş mütəxəssis
Email : Nurana.Gsalahova@etti.edu.az
Əlaqə telefonu : 012 465 73 48



**Məktəblərdə təmir işləri ilə bağlı tender keçirilir - 4,3 MİLYON MANAT**

Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi açıq tender elan edir. Elanda Respublikanın bir sıra təhsil müəssisələrində təmir, kommunal-kommunikasiya və abadlıq işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zulfiqar Quliyev, Əsaslı Tikinti və Təchizat İdarəsinin Satınalmaların təşkili şöbəsinin baş mütəxəssisi
Email : Zulfigar.Guliyev@etti.edu.az
Əlaqə telefonu : 465-73-48



**Polad fitinqlərin satın alınması ilə bağlı tender keçirilir.**

"İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" Publik Hüquqi Şəxsi Polad fitinqlərin satın alınması üzrə tender elan edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elçin İbrahimov, Mühəndis
Email: Elcin.İbrahimovi@azersu.az
Əlaqə telefonu: 050 323 64 99



**M.F.AXUNDOV ADINA MİLLİ KİTABXANA TENDER ELAN EDİR.**

M.F.Axundov adına milli kitabxana M.F.Axundov adına Milli Kitabxana tərəfindən 2024-cü il üzrə layihə-smeta sənədlərinin iqtisadi göstəriciləri əsasında aparılacaq müxtəlif təyinatlı işlərin satın alınması üzrə tender elan edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Rubaba Nəsrullayeva, aparıcı mühasib
Email: rubaba1964@mail.ru
Əlaqə telefonu: +012 493 51 24



**SƏKİLƏRİN BƏRPASI VƏ CARİ TƏMİR İŞLƏRİNİN SATINALINMASI ÜZRƏ TENDER ELAN EDİLİR.**

"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" Publik Hüquqi Şəxsin Mənzil-kommunal Və Təmir Xidməti səkilərin bərpası və cari təmir işlərinin satınalınması üzrə tender elan edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Aydan Məhərrəmzadə, Mühasib - satınalma mütəxəssisi
Email: mktx@shusha.gov.az
Əlaqə telefonu: +994 10 228 56 50





**www.atmia.az**